Vətən bölünməzdir!





# LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№ 33-34 (8485) ◉ Çərşənbə axşamı, 17 sentyabr 2019-cu il ◉ Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ◉ Qiyməti 50 qəpik



## AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLARININ 2019-CU İL OKTYABRIN 1-DƏN 30-DƏK MÜDDƏTLİ HƏQİQİ HƏRBİ XİDMƏTƏ ÇAĞIRILMASI VƏ MÜDDƏTLİ HƏQİQİ HƏRBİ XİDMƏT HƏRBİ QULLUQÇULARININ EHTİYATA BURAXILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 2001-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1984-2000-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2019-cu il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2019-cu il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 avqust 2019-cu il

## ŞIXƏKƏRANDA YENİ MƏKTƏBİN AÇILIŞI OLUB

Sentyabrın 16-da Azərbaycan Prezidenti cənab İlham Əliyevin 15 oktyabr 2018-ci il tarixli Sərəncamı ilə inşa olunmuş Lənkəran rayonundakı N.Həsənov adına Şıxəkəran kənd tam orta məktəbinin açılış mərasimi keçirilib. Tədbirdə Təhsil nazirinin müavini Firudin Qurbanov, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri Aslan İbrahimov, şagird və müəllimlər, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Açılış mərasimindən əvvəl şəhərin Heydər Əliyev Xatirə Parkında Ümummilli Liderin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülərək xatirəsi ehtiramla yad edilib.

Açılış mərasimində çıxış edən Təhsil nazirinin müavini Firudin Qurbanov yeni məktəb binasının istifadəyə verilməsi və tədris ilinin başlanması münasibəti ilə təhsil işçilərini, məktəbliləri və valideynləri təbrik edərək,






onlara uğurlar arzulayıb. Nazir müavini Prezident İlham Əliyevin təhsilə göstərdiyi diqqət və qayğıdan danışıb, təhsil sahəsində qazanılan uğurlardan söz açıb və yeni tədris ilində qarşıda duran vəzifələri diqqətə çatdırıb.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, öz növbəsində, məktəbin müəllim və şagird kollektivini təbrik edib, son illərdə rayonda təhsil sahəsində əldə olunan nailiyyətlərdən danışıb.

Daha sonra tədbir iştirakçıları yeni tədris ocağında yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, 432 şagird yerlik N.Həsənov adına Şıxəkəran kənd tam orta məktəbində 384 şagirdin təlim-tərbiyəsi ilə 62 müəllim məşğul olur. Yeni açılan məktəb binasında müasir tədris avadanlıqları ilə təchiz olunmuş sinif otaqları, laboratoriya, kompüter otağı, akt zalı, idman zalı, hərbi hazırlıq otağı və kitabxana yerləşir.

"Lənkəran"

## LDU-DA YENİ TİKİLMİŞ İKİ TƏDRİS KORPUSU VƏ YATAQXANA BİNASI İSTİFADƏYƏ VERİLİB

Sentyabrın 16-da Lənkəran Dövlət Universitetinin (LDU) yeni tələbə yataqxanasının və 2 yeni tədris binasının açılış mərasimi keçirilib.

Tədbirdə çıxış edən Təhsil nazirinin müavini Firudin Qurbanov tələbə yataqxanasının istifadəyə verilməsini yüksək dəyərləndirərək, bunun tələbələrin mənzil-məişət şəraitinin yaxşılaşmasına müsbət təsir göstərəcəyini deyib. Yeni tədris korpuslarının inşa olunmasının müəllimlərin iş, tələbələrin təhsil almaq şəraitinin yaxşılaşdırılması baxımından böyük əhəmiyyət kəsb etdiyini deyən nazir müavini ölkədə təhsilin inkişafı istiqamətində aparılan işlər barədə də ətraflı söz açıb.

LDU-nun rektoru vəzifəsini icra edən Natiq İbrahimov isə 2 yeni tədris binasının və 160 yerlik tələbə yataqxanasının istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirərək bildirib ki, bu, tədrisin keyfiyyətinin yüksəlməsinə, kadr hazırlığına müsbət təsir göstərəcək, digər regionlardan gələn tələbələrin mənzil probleminin həllinə yardımçı olacaq.





Mərasimdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov və digər qonaqlar da çıxış edərək, tələbə yataqxanası və yeni tədris korpuslarının inşasının əhəmiyyətini vurğulayıblar.

Daha sonra tədbir iştirakçıları tələbə yataqxanasında və tədris korpuslarında yaradılmış şəraitlə tanış olublar.

Qeyd edək ki, LDU-nun 160 yerlik tələbə yataqxanasında hər cür şərait yaradılıb, otaqlar zəruri məişət avadanlıqları, fasiləsiz internetlə təmin olunub. Yataqxanada idman zalı, kitabxana və oxu zalı, informatika otağı, istirahət guşəsi tələbələrin ixtiyarında olacaq. Yataqxana binasında videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri, internet və telefon xətləri çəkilib. Tədris korpusları da müasir tədris avadanlıqları, laboratoriyalarla təmin olunub, informatika kabinetləri, kitabxana, oxu və idman zalları yaradılıb.

"Lənkəran"

# İCRA BAŞÇISININ SƏYYAR QƏBUL-GÖRÜŞLƏRİ

### Girdəni kəndində

Avqustun 28-də Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov növbəti səyyar qəbul-görüşünü rayonun iri yaşayış məskənlərindən olan Girdəni kəndində keçirib.

İcra aparatının rəsmilərinin, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət idarələrinin və xidmət təşkilatlarının rəhbər işçilərinin iştirak etdiyi qəbul-görüşdə sakinlərlə səmimi söhbət aparılaraq müraciətləri dinlənilib, qaldırdıqları məsələlər araşdırılıb və onların həlli istiqamətində müvafiq tədbirlər müəyyən edilib.

Qəbul-görüşdən razılıqlarını ifadə edən sakinlər əvvəlki görüşlər zamanı qaldırılmış problem məsələlərin həlli ilə bağlı görülmüş işlərə görə də minnətdarlıqlarını bildiriblər.



Çıxışlarda magistral avtomobil yolun Girdəni məktəbinin qarşısından keçən hissəsində, məktəblilər və piyadalar üçün təhlükəli yerdə işıqforun quraşdırılmasından və Girdəniçayı üzərindəki körpüdə piyada keçidinin təmir olunub möhkəmləndirilməsindən, kənddə elektrik təsərrüfatının yenilənməsindən, elektrik xətlərinin kabelləşdirilməsindən, təbii qazın fasiləsiz olaraq verilməsindən, telefon xətlərinin təmir olunmasından, internet xidmətinin yaxşılaşdırılmasından məmnunluq ifadə olunub.

Eyni zamanda, kənddə leysan yağışlar zamanı subasmalara səbəb olan maneələri aradan qaldırmaq məqsədilə Ləkər çayının 500 metr məsafədə qazılması və 2500 metr uzunluqda kollektorun lil və alaqdan təmizlənməsi vətəndaş müraciətlərinin daim diqqətdə saxlanılmasının və qaldırılan məsələlərin həllindən ötrü müvafiq tədbirlərin görülməsinin sübutu kimi vurğulanıb.

Qeyd olunub ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən dövlət qayğısı hesabına Girdəni kəndində də böyük işlər görülüb. Cari ildə kənddə fərdi təsərrüfatlarda 19 hektar çəltik, 5 hektar buğda, 7 hektar arpa əkilib, 156 kq barama istehsal olunub. "Qreen East" MMC tərəfindən 62,50 hektar çəltik, "Astara-Çay" MMC tərəfindən 120 hektar çay, 87, 69 hektarda çəltik, "BETA" şirkəti tərəfindən 40, 97 hektarda çəltik əkilib. Ümumilikdə bu təsərrüfatlarda 255 nəfər daimi, 31 nəfər yerli sakin mövsümi işlə təmin olunub. Əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə iş üçün müraciət etmiş 20 nəfər kənd sakini haqqı ödənilən ictimai işlərə cəlb olunub.

Qəbul-görüşü yekunlaşdıraraq sakinlərə xoş arzularını bildirən İcra başçısı müraciətlərdə irəli sürülən məsələlərin həlli ilə bağlı vaxtında lazımi tədbirlərin görülməsinin vacibliyini bir daha aidiyyəti məsul şəxslərin diqqətinə çatdırıb.

### Haftoni qəsəbəsində

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov sentyabrın 4-də rayonun Haftoni qəsəbəsində növbəti səyyar qəbul-görüşünü keçirib. İcra aparatının, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət sahələrinin və xidmət təşkilatlarının rəhbər işçilərinin iştirakı ilə keçən qəbul-görüşdə qəsəbə sakinlərinin müraciətləri dinlənilib, irəli sürdükləri təkliflər və qaldırdıqları məsələlər yerindəcə araşdırılaraq həlli ilə bağlı tədbirlər müəyyənləşdirilib.

Sakinlər qəbul-görüşdən razılıqlarını bildirməklə görülən işləri yüksək qiymətləndiriblər. Onlar ümumilikdə rayonun sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən layihələrdən, digər mədəni-quruculuq işlərindən məmnunluqlarını ifadə ediblər. Çıxışlarda Haftoni qəsəbəsi ərazisinin də sürətlə inkişaf edərək beynəlxalq turizm mərkəzinə çevrilməsindən, ərazidən keçən Ələt-Astara magistral yolunun istifadəyə verilməsindən, qəsəbədə dünya səviyyəli İstisu Müalicə Mərkəzinin açılmasından, yerli sakinlərin, xüsusilə qadınların yüksək maaşlı işlə təmin edilməsindən razılıq ifadə olunub. Heydər Əliyev Fondunun təşəbbüsü ilə qəsəbədə 627 şagird yerlik ən müasir tələblərə cavab verən məktəbin tikintisinə başlanılması dövlətin vətəndaşların sosial rifahının yüksəldilməsinə, xalqın balalarının keyfiyyətli təhsil almasına və sağlam böyüməsinə göstərdiyi davamlı diqqətin bəhrəsi kimi dəyərləndirilib. Onlar görülən bütün bu işlərə görə ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya ən səmimi minnətdarlıqlarını ünvanlayıblar.



İcra başçısı səyyar qəbulu yekunlaşdıraraq aidiyyəti məsul şəxslərə fərdi müraciətlərdə səsləndirilmiş məsələlərin həlli ilə bağlı müvafiq tədbirlərin görülməsini tapşırıb.

### Tükəvilə kəndində

Lənkəran rayonunun inzibati ərazi dairələrinin mərkəzi yaşayış məntəqələrində səyyar qəbullarını başa vuran İcra başçısı Taleh Qaraşov növbəti qəbullarını ucqar kəndlərdə keçirməyə başlayıb. Sentyabrın 12-də rayonun Separadi inzibati ərazi dairəsinin Tükəvilə kəndində keçirilən qəbulda İcra hakimiyyəti başçısı aparatının, hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, poçt, telekommunikasiya və digər xidmət idarələrinin rəhbərləri də iştirak ediblər.



Qəbulda vətəndaşlar İcra başçısına müraciət edərək kəndin sosial-iqtisadi inkişafı və fərdi məsələlərlə bağlı xahişlərini, arzu və təkliflərini diqqətə çatdırıblar.

Müraciətlərdə həmçinin ucqar yaşayış məntəqələrində səyyar qəbulların keçirilməsindən razılıq ifadə olunub.

Çıxışlarda son illərdə ölkədə həyata keçirilən sosial islahatlardan xalqın bütün təbəqələrinin bəhrələndiyi, maaş və müavinətlərin, pensiyaların dəfələrlə artırılmasının hər bir ailənin maddi durumunu yaxşılaşdırdığı qeyd olunub.

Kənddə ikimərtəbəli müasir məktəb binasının tikilib istifadəyə verilməsinin təhsilin keyfiyyətinə müsbət təsir göstərdiyi, bunun sayəsində ali məktəblərə daxil olan şagirdlərin sayının ilbəil artdığı minnətdarlıqla vurğulanıb.

Kənddə iki istiqamətdə 150 hektarda salınmış sitrus bağında 90 nəfərin və 55 hektarda salınmış hallobonq meyvə plantasiyasında 38 nəfərin işlə təmin olunması aqrar sahəsinin inkişafına göstərilən davamlı diqqətin bəhrəsi kimi dəyərləndirilib.

Vətəndaşların müraciətlərini həssaslıqla dinləyən İcra başçısı qaldırılan məsələlərin həlli ilə bağlı tədbirlərin görülməsindən ötrü əlaqədar rəsmi şəxslərə müvafiq tövsiyə və tapşırıqlar verib.

**"Lənkəran"**

# EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ LƏNKƏRANDA VƏTƏNDAŞLARI QƏBUL EDİB



Mərkəzi İcra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən avqustun 30-da Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev Lənkəran şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Lənkəran, Lerik, Masallı, Yardımlı və Astara rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl nazir və Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov Heydər Əliyev Xatirə Parkında Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, hidrometeorologiya, ətraf mühitin monitorinqi və digər məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərləri üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar onların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**"Lənkəran"**

# LƏNKƏRANDA QANVERMƏ AKSİYASI KEÇİRİLİB

Son illərdə Lənkəran Şəhər İcra Hakimiyyətinin rəhbərliyi ilə aparılan davamlı izahat və maarifləndirmə işləri sayəsində rayonda keçirilən dini tədbirlər, o cümlədən məhərrəmlik mərasimləri mütəşəkkilliyi və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunluğu ilə seçilir. Artıq Aşura günü ilə əlaqədar rayonumuzda xeyriyyə məqsədli könüllü qanvermə aksiyasının keçirilməsi ənənə halını alıb.



Sentyabrın 9-da və 10-da şəhərin Böyük Bazar məscidində Qafqaz Müsəlmanları İdarəsinin və Mərkəzi Qan Bankının Lənkəran bölməsinin dəstəyi, Lənkəran Şəhər İcra Hakimiyyətinin və Lənkəran Mərkəzi Rayon Xəstəxanasının birgə təşkilatçılığı ilə növbəti qanvermə aksiyası keçirilib.

QMİ-nin Qazilər Şurasının üzvü Qəni Axundzadənin sözlərinə görə, şəhər sakinləri, əmək kollektivlərinin nümayəndələri, dini mərasim iştirakçıları mütəşəkkilliklə xüsusi olaraq ayrılmış və bütün zəruri avadanlıqlarla təchiz edilmiş otağa gələrək ixtisaslı həkimlərin nəzarəti altında könüllü qan veriblər. Dini mərasim iştirakçıları, ziyarətçilər bu xeyriyyə tədbirində iştirak etməkdən, xəstə insanlara yardımçı olmaqdan şərəf duyduqlarını qeyd ediblər.

İki gün davam edən aksiya zamanı toplanan qan laboratoriya şəraitində standartlara uyğunluğu yoxlanıldıqdan sonra hemofiliyalı və talassemiyalı xəstələrin, eləcə də qana ehtiyacı olan şəxslərin müalicəsinə sərf olunacaq.

**"Lənkəran"**

# ÖLKƏMİZDƏ 1 MİLYON 350 MİN NƏFƏRİN ƏMƏK HAQQI ARTIRILIB

***Son illər ölkə əhalisinin rifahı dövlətimiz tərəfindən davamlı olaraq yaxşılaşdırılır. Məqsəd bazar iqtisadiyyatı şəraitində sosial ədaləti təmin etməkdir. İkinci sosial paketin icrasına başlanılması buna əyani sübutdur. Belə ki, bu il sentyabrın 1-dən başlayaraq ölkəmizdə minimum əmək haqları üzrə 950 min, digər sahələr üzrə 400 min nəfərin maaşı artırılır. Dövlət başçısının bu humanist təşəbbüsü əhalinin ən müxtəlif təbəqələri arasında dərin razılıq hissi ilə qarşılanıb. Redaksiyamıza daxil olan məktublarda da bu barədə söz açılır.Onların bir qismini dərc edirik.***

### İkinci islahatlar paketi birbaşa əhalinin rifahının yaxşılaşmasına yönəlib

Azərbaycan Prezidenti İlham Əliyevin bu il iyunun 18-də imzaladığı minimum əmək haqqının artırılması haqqında sərəncamı böyük inqilabi addım hesab edirəm. Bu, dövlət başçımızın 2019-cu ildə ölkə əhalisinə təqdim etdiyi ikinci sosial islahatlar paketidir. Birinci islahatlar paketi 2019-cu ilin martında irəli sürülmüş, ölkə əhalisinin minimum əməkhaqqı 130 manatdan 180 manata qaldırılmışdı. Minimum əməkhaqqının birdən-birə və heç kəsin gözləmədiyi halda 50 manat artırılması böyük bir humanizm aktı idi.

Prezidentin son təxminən 6 ay ərzində atdığı addımlar bir məqsəd daşıyır – ölkə əhalisinin rifahının yaxşılaşdırılması. Artıq sentyabrın 1-dən ölkəmizdə minimum əmək haqqının məbləği 180 manatdan 250 manata qaldırılıb, yəni birdən-birə 70 manat. Bunu bütün ictimaiyyətimiz əsl inqilabi addım hesab edir. Əhalimiz ikinci islahatlar paketini böyük razılıq və minnətdarlıq hissi ilə qarşıladı.

Dövlət başçımızın birinci islahatlar paketi, iqtisadçıların hesablamalarına görə, 3 milyon insanı əhatə etmişdisə, ikinci paket 2 milyona qədər vətəndaşımıza şamil olunur. Təbii ki, bir sıra digər qurumların – Mərkəzi Seçki Komissiyası üzvlərinin, DİN-in xüsusi rütbəsi olan əməkdaşlarının, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti və digər təşkilatlarda çalışanların əmək haqqının kifayət qədər ciddi rəqəmlərlə artırılması da nəzərə alınmalıdır. Oktyabrın 1-dən isə pensiyalar əhəmiyyətli dərəcədə artacaq.

Ümumilikdə, hesab edirik ki, dövlət başçımız bu inqilabi addımları ilə bir daha sübut etdi ki, dövlət daim xalqın yanındadır. Azərbaycan büdcəsi sosial yönümlü olaraq qalır. Bu büdcənin mühüm hissəsini sosial xərclər təşkil edir. Bu isə ölkəmizdə vətəndaşların sosial müdafiəsinə, onların rifah halının yaxşılaşmasına daim diqqət yetirildiyini göstərir.

**Ağamir CAVAD,**
**şair, AYB Lənkəran bölməsinin məsul əməkdaşı**

### Dövlət başçısının islahatları bizə yeni stimul verib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan sosial siyasətin bir istiqaməti olan səhiyyədəki islahatların əsas məqsədi ölkə vətəndaşlarının sağlamlığını qorumaqdır. Son illər dünyanın çox az ölkəsində təsadüf edilən genişmiqyaslı layihələrdən biri də insanların yaşadıqları ərazidə yerləşən poliklinikalarda kütləvi şəkildə tibbi müayinədən keçməsidir. Bizim rayonda da bu iş böyük mütəşəkkilliklə aparılır.

Dövlət başçısının sosial yönümlü siyasətinin nəticəsi olaraq Azərbaycanda çoxsaylı səhiyyə müəssisələrinin tikintisi, əsaslı təmiri və müasir avadanlıqla təchiz edilməsi uğurla həyata keçirilir. Maddi-texniki bazanın inkişaf etdirilməsi ilə yanaşı, tibb müəssisələrinin yüksək ixtisaslı kadrlarla təminatı sahəsində də müstəsna əhəmiyyətli tədbirlər reallaşdırılır. Bunlar Azərbaycan vətəndaşına olan xidmətin, münasibətin güzgüsüdür.

Cari ilin əvvəlində dövlət başçısının "Minimum aylıq əmək haqqının artırılması haqqında" sərəncamı ilə Azərbaycanda bu məbləğ 130 manatdan 180 manata qaldırıldı. Bununla, ölkəmizdə minimum əmək haqqının yaşayış minimumuna (180 manat) çatdırılması təmin edildi. Prezident tərəfindən imzalanan 18 iyun tarixli sərəncamlar isə daha böyük məna kəsb edir. Səhiyyə işçilərinin əmək haqlarının ikinci dəfə artırılmaqla, 180 manatdan 250 manata çatdırılması çox vacib əhəmiyyətə malik önəmli addımdır. Bir il ərzində minimum əmək haqqının 2 dəfəyədək artırılması, kifayət qədər yüksək göstəricidir. Bizim kollektivimiz də bu artımdan son dərəcə razı qalıb. Təsəvvür edin ki, ikiüç il öncə işə başlayan kiçik tibb işçisinin əmək haqqı 130 manata qədər idisə, bu gün onun 250 manat maaş alması, əlbəttə ki, böyük sevincdir, ailə büdcəsinə hiss ediləcək köməkdir.

Əgər fevralın 8-də minimum əməkhaqqının artırılması 600 min nəfəri əhatə edirdisə, yeni sərəncamla bu artım 950 min nəfərə şamil olunur. Bu insanların 300 min nəfəri özəl sektorda, 600 minə yaxını isə dövlət sektorunda çalışan vətəndaşlar, o cümlədən Vahid Tarif Cədvəli ilə maaş alan səhiyyə və təhsil işçiləridir. Bu sərəncamla təkcə minimum əməkhaqqının artırılmasına dövlət büdcəsindən əlavə olaraq ildə 780 milyon manat vəsaitin xərclənməsi nəzərdə tutulub.

Əminliklə demək olar ki, ölkəmizin bütün səhiyyə işçiləri, o cümlədən də kollektivimiz Azərbaycanda sosial sahədə aparılan islahatların, həyata keçirilən layihələrin, reallaşdırılan proqramların insan sağlamlığına, firavanlığına ünvanlandığını görür, bəyənir, alqışlayır və buna görə ölkə başçısına minnətdar olduğumuzu bildiririk.

**Novruz ABDULLAYEV,**
**İstisu qəsəbə sahə xəstəxanasının baş həkimi**



### Daha yaxşı işləmək əzmindəyik

Respublikamızda pedaqoji işçilərin əməyinə dövlətimiz tərəfindən həmişə yüksək qiymət verilir, təhsil sahəsində çalışanların sosial rifahının, maddi vəziyyətinin yaxşılaşdırılması üçün davamlı tədbirlər həyata keçirilir. Prezidentimizin müvafiq sərəncamları ilə son bir neçə ildə müəllimlərin əmək haqları dəfələrlə artırılıb. Bütün bunlar biz müəllimlərin öz işinə daha məsuliyyət və həvəslə yanaşmalarına müsbət təsir göstərir. Şagirdlərimizin respublika fənn olimpiadaları və müsabiqələrdəki uğurlu çıxışları, ali məktəblərə qəbul imtahanlarında məzunlarımızın qazandığı nailiyyətlər də buna əyani sübutdur.

Ölkə başçısı cənab İlham Əliyevin bu il iyunun 18-də imzaladığı Sərəncamla dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının sentyabrın 1-dən 20 faiz artırılması hər yerdə olduğu kimi bizim də məktəbin pedaqoji kollektivi tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb. Əməyimizə verilən qiymət bizi daha yaxşı işləməyə həvəsləndirib. Çalışacağıq ki, bundan sonrakı fəaliyyətimizdə də gənc nəslin vətənpərvər şəxsiyyət kimi yetişməsinə layiqli töhfələr verək.

**Faiq BABAYEV,**
**Xarxatan kənd tam orta məktəbinin direktoru**

### Dünya boyda sevinc

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin minimum əmək haqqının, habelə dövlət orqanlarında çalışan dövlət qulluqçuları olmayan işçilərin, eləcə də dövlət müəssisələrində çalışan digər şəxslərin əmək haqqının, sosial müavinətlərin və pensiyaların artırılması barədə sərəncamları sentyabrının 1-dən qüvvəyə minməsi Azərbaycan vətəndaşlarının, eləcə də bizim teatrımızın kollektivinin sevincinə səbəb olub.

Ölkə başçısı 2019-cu il iyunun 18-də imzaladığı sərəncamlarla milyonlarla insana dünya boyda sevinc bəxş etdi. Minimum əmək haqqının 250 manata çatdırılması bir daha göstərdi ki, ölkəmizdə insanın rifah halının yaxşılaşdırılması, həyat səviyyəsinin yüksəldilməsi Prezidentimizin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən islahatların başlıca məqsədidir. Milyonlarla insanı əhatə edən bu sərəncamlar bu gün dünyada sabitlik adası adlandırılan Azərbaycanın vətəndaşlarının qurub-yaratmaq əzmini artırır.

Ölkəmizin sürətli inkişaf mənzərəsini doğma Lənkəranımızın timsalında da açıq-aşkar görürük. Tikilən yeni məktəblər, mədəni-maarif müəssisələri, müalicə ocaqları, idman-sağlamlıq qurğuları, aparılan abadlıq-quruculuq işləri, salınan asfalt yollar, həyata keçirilən digər sosial layihələr bunun bariz nümunəsidir. Azərbaycan insanına göstərilən bu qayğıya görə möhtərəm Prezidentimiz İlham Əliyevə sonsuz minnətdarıq.

**Oruc QURBANOV,**
**Lənkəran Dövlət Dram Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi**

# LƏNKƏRANDA ƏHALİNİN SİYAHIYAALINMASI İLƏ BAĞLI TƏŞKİLATİ İŞLƏR BAŞA ÇATDIRILIB

**Prezident İlham Əliyevin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" 2016-cı il 7 sentyabr tarixli Fərmanında qarşıya qoyulmuş vəzifələr ölkənin hər yerində olduğu kimi, Lənkəran rayonunda da müvəffəqiyyətlə icra edilir. Oktyabrın 1-dən 10-dək keçiriləcək dövlət əhəmiyyətli bu mühüm kampaniya ilə bağlı təşkilati işlər artıq son mərhələyə daxil olub. Müxbirimiz rayon statistika idarəsinin rəisi Vaqif Mustafayevlə görüşərək ondan həyata keçirilən tədbirlər və qarşıda duran vəzifələr barədə məlumat verməsini xahiş edib. V.MUSTAFAYEV deyib:**

– Dünya praktikasında hər bir ölkədə əhalinin sayı, sosial-demoqrafik strukturu haqqında əsas informasiya mənbəyi kimi həmin ölkədə aparılan siyahıyaalmanın məlumatları əsas götürülür. Ölkəmizdə də əhali, onun tərkibi, həyat şəraiti, sosial-demoqrafik vəziyyəti haqqında dəqiq məlumat əhalinin siyahıyaalınması əsasında əldə edilir.

Əhalinin siyahıyaalınması müstəqil ölkəmizdə dövlət siyasətinin başlıca tərkib hissəsidir. Bu mühüm dövlət tədbiri BMT-nin tövsiyələrinə uyğun olaraq ölkəmizdə hər 10 ildən bir keçirilir. Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini qazandıqdan sonra ölkəmizdə 1999 və 2009-cu illərdə əhalinin siyahıyaalınması keçirilib. Əhalinin növbəti siyahıyaalınması isə, yuxarıda qeyd edildiyi kimi, Azərbaycan Respublikası Prezidentinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıya alınmasının keçirilməsi haqqında" 2016-cı il 7 sentyabr tarixli Fərmanına əsasən 2019-cu il oktyabrın 1-dən 10-dək aparılacaqdır.




Şübhəsiz, ötən 10 il ərzində ölkəmiz əvvəlki dövrlərlə müqayisədə azı yarıməsrlik bir inkişaf yolu keçib. Ölkəmizin sahib olduğu resursların xalqımızın rifahı naminə istifadəsi, insan inkişafı indeksinin dəfələrlə yüksəlməsi və ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artması kimi ümumi inkişaf göstəriciləri əhali sayının artmasına və insanların rifah halının daha da yüksəlməsinə öz təsirini göstərib.

Məlumat üçün bildirim ki, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2017-ci il 17 yanvar tarixli Sərəncamı ilə əhalinin siyahıyaalınmasının keçirilməsi üzrə "Təqvim planı" təsdiq edilib. İdarəmiz tərəfindən həmin "Təqvim planı"nda nəzərdə tutulan təşkilati işlərin icra müddətləri üzrə icrasını təmin etmək üçün hazırlıq işləri davam etdirilir. Artıq şəhər, qəsəbə və kənd ərazi dairələri üzrə sxematik xəritələr işlənib, ərazilər, küçə adları təkrar dəqiqləşdirilib, təsərrüfatbaşına uçot sənədləri əsasında təsdiq edilmiş formalar üzrə məlumatlar hazırlanıb. Rayon üzrə 16 siyahıyaalma məntəqəsi yaradılıb, 152 təlimatçı və 756 sayıcı ayrılıb. Siyahıyaalma məntəqələrinin işinə mülki-hüquqi müqavilələr əsasında işçilər cəlb edilib. Siyahıyaalmaya cəlb edilmiş təlimatçı-nəzarətçilərin təlimatlandırılması məqsədilə sentyabrın ilk günlərindən ayrı-ayrı ərazilərdə seminar-müşavirələrə start verilib. Bu tədbirlərin əsas məqsədlərindən biri də "Siyahıyaalma məntəqələri üzrə işçilərin təlimatlandırılması planı"na uyğun olaraq siyahıyaalmaya cəlb ediləcək işçilərin, yəni siyahıyaalma məntəqələrinin müdirlərinin və onların müavinlərinin, təlimatçı-nəzarətçilərin və sayıcıların təlimatlandırılmasının təmin edilməsidir.

Yeri düşmüşkən əhalinin siyahıyaalınması ilə bağlı mühüm bir xüsusiyyəti də oxucuların diqqətinə çatdırmaq istərdim. Əvvəlki siyahıyaalmadan fərqli olaraq sorğu vərəqəsinə ilk dəfə olaraq daxil edilmiş əlilliyə dair suallar ölkədə sağlamlıq imkanları məhdud uşaqların və əlilliyi olan şəxslərin mənzil-məişət şəraitinə, təhsilinə və məşğulluğuna, habelə siyahıyaalma çərçivəsində toplanan digər göstəricilərə dair məlumatların əldə edilməsinə imkan yaradacaq. Məşğulluq sahəsində milli qanunvericiliyə və Beynəlxalq Əmək Təşkilatı tərəfindən qəbul edilmiş beynəlxalq metodologiyalara əsaslanaraq, sorğu vərəqəsinə işçi qüvvəsini, həmçinin potensial işçi qüvvəsini, əhalinin məşğulluğunu, o cümlədən özünüməşğulluğunu, işsizliyini, iqtisadi qeyri-fəallığını və öz şəxsi istehlakı üçün mal istehsalı ilə məşğul olanları müəyyən edən bir sıra suallar daxil edilib. Bu suallar əsasında iqtisadi və inzibati rayonlar üzrə peşə və vəzifələr, iqtisadi fəaliyyət növləri, cins və yaş bölgüsündə işçi qüvvəsinə dair əldə olunacaq məlumatlar ölkədə əmək ehtiyatlarının istifadəsinin əhatəli qiymətləndirilməsinə və əmək bazarında mövcud vəziyyəti daha geniş təhlil etməyə imkan verəcək.

Fürsətdən istifadə edib şəhər və rayonumuzun bütün sakinlərini oktyabrın 1-dən 10-a kimi keçiriləcək əhalinin siyahıyaalınma kampaniyasında fəal iştirak etməyə çağırıram.

**Söhbəti yazdı:**
**Ağaddin BABAYEV**




# LƏNKƏRANDA "SÜLH AYLIĞI"

Lənkəran şəhərindəki Gənclər Evində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 1 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsi, Lənkəran Şəhər Gənclər və İdman İdarəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Lənkəran bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə "Sülh aylığı" çərçivəsində tədbir keçirilib.

Tədbirdə çıxış edənlər Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması sahəsində Milli Fəaliyyət Proqramı"nın mahiyyəti və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin, (Ombudsmanın) təşəbbüsü ilə elan edilmiş "Sülh aylığı" barədə iştirakçıları məlumatlandırıblar.

Çıxışlarda gənclər arasında sülh və humanizm prinsiplərinin, milli-mənəvi dəyərlərin təbliğ edilməsinin vacibliyi qeyd olunub, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**"Lənkəran"**

# CƏNUB ZONASININ DEMOQRAFİYA MƏSƏLƏLƏRİNƏ DAİR YENİ KİTAB ÇAPDAN ÇIXIB




AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu insan coğrafiyası istiqaməti əməkdaşlarının "Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda demoqrafik inkişaf problemləri və əhalinin məskunlaşması" adlı yeni kitabı çapdan çıxıb.

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində ikinci dəfə nəşr olunan və 4 fəsildən ibarət monoqrafiyada Azərbaycanın cənub regionunda əhali məskunlaşmasının müasir vəziyyəti, onun dinamikasına təsir göstərən təbii-coğrafi və sosial-iqtisadi amillər təhlil olunur. Kitabda rəngli şəkillər, xəritə və cədvəllər əks olunur.

Monoqrafiya əhali coğrafiyası, demoqrafiya, iqtisadi coğrafiya ilə məşğul olan elmi işçilər, ali məktəb tələbələri (bakalavr və magistrlər), regional planlama ilə məşğul olan mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulur.

Kitabın baş redaktoru akademik Ramiz Məmmədov, elmi redaktoru coğrafiya üzrə fəlsəfə doktoru, dosent Məhərrəm Həsənovdur.

**"Lənkəran"**

# VİRAVUL KƏNDİNDƏ YENİ MƏKTƏB TİKİLİR

Heydər Əliyev Fondu tərəfindən Viravul kənd 2 nömrəli orta məktəbi üçün yeni bina tikilir. İkimərtəbəli 360 şagird yerlik məktəb binasının tikintisinə iyul ayından başlanılıb. 2500 kv m ərazisi olan məktəbin binası 2 tədris, bir idman və akt zalı olmaqla 4 korpusdan ibarətdir. Hazırda burada qızğın iş gedir. İş icraçıları və fəhlələr tikinti işlərini keyfiyyətlə və vaxtında başa çatdırmaqdan ötrü səylə çalışırlar. Biz məktəbdə olarkən iş icraçısı Sübhan Musayev tikintinin gedişi ilə bağlı bunları bildirdi:

*– Artıq 2 korpusda hörgü, monolit işi tam yekunlaşıb. 2 korpusda hörgü işi davam edir. Məktəb hasarının tikintisi də başa çatdırılıb. Yardımçı tikililər – qazanxana, su anbarı tam hazır vəziyyətdədir. Yeri gəlmişkən, qeyd edim ki, su anbarları hərəsi 100 ton olmaqla 2 çəndən ibarətdir. İşlərimiz plana uyğun gedir. Məktəbin tikintisində əsasən kənd sakinləri çalışırlar. Ümumilikdə isə 50-dən çox işçimiz var.*

Valideynlər, uşaqlar və məktəbin pedaqoji kollektivi də sevinc içərisindədirlər. Məktəbin direktoru Araz Babayevin dediklərindən:



*– Uzun illər idi ki, biz köhnə, yararsız binada işləyirdik. Düzdür, məktəbimiz təhsil nailiyyətlərinə görə həmişə öndə gedirdi. Lakin bu, fəaliyyətimizin kiçik bir hissəsi idi. Şəraitsizlik bütün bacarığımızı ortaya qoymağa imkan vermirdi. Şükürlər olsun ki, artıq bu narahatçılıqlar arxada qalıb. İnşallah, bir neçə aydan sonra yeni məktəb binasında işimizi davam etdirəcəyik. Təbii ki, yeni, müasir üslublu məktəb həm müəllimlərimizə, həm də şagirdlərimizə yeni stimul verəcək. Heydər Əliyev Fondu tərəfindən göstərilən bu diqqət və qayğı məktəbimizin müəllim və şagird kollektivini daha həvəslə, daha keyfiyyətlə çalışmağa, daha böyük uğurlar və nailiyyətlər əldə etməyə ruhlandıracaqdır.*

Cənub bölgəsində rütubət, nəmişlik çox olduğuna görə yağışlı, qarlı günlərdə zirzəmiyə su sızmasının qarşısını almaq məqsədilə birinci mərtəbədə ikiqat izolyasiya işləri aparılıb. Tikintidə ölkəmizdə istehsal olunan inşaat materiallarından istifadə olunur.

Qeyd edək ki, məktəbdə fənn kabinetləri, laboratoriyalar, akt zalı, mətbəx, idman zalı, kitabxana fəaliyyət göstərəcək. Bundan başqa, ərazidə yardımçı tikililər – qazanxana, nasosxana, su hovuzları da inşa olunacaq.

**Natiqə AĞAYEVA**

# UĞURLARIMIZ DAVAMLI OLACAQ



Ulu Öndər Heydər Əliyev deyirdi: "Bizim təhsilimiz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək, əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir. Ona görə də Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təminatçısı məhz Azərbaycan gəncliyidir".

Ümummilli Liderin bu sözlərini pedaqoji kollektivimiz özünün fəaliyyət proqramına çevirib. Elə bu səbəbdəndir ki, hər tədris ilini yaxşı nəticələrlə başa vururuq.

Məktəbimizdə 305 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 20 müəllim məşğul olur.

Sinif otaqları və fənn kabinələrində yaradılan şərait dərslərdə əyaniliyin təmin olunmasına, şagirdlərin yüksək səviyyədə təhsil almasına, Azərbaycançılıq ideyalarına sadiq, müstəqil və yaradıcı düşünən gənc kimi yetişməsinə imkan verir.

İnternetə çıxışla təmin olunmuş məktəb zəngin kitabxana fonduna malikdir.

Azərbaycan təhsilinin yeni inkişaf mərhələsinə qədəm qoyması Ulu Öndərin siyasi xəttini bütün sahələrdə uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində mümkün olub. Təhsilin inkişafını dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirən ölkə rəhbərinin diqqət və qayğısının bəhrələrini rayonumuzun timsalında da görmək olar. Həyata keçirilən tədbirlər məzunlarımızın buraxılış və ali məktəblərə qəbul imtahanlarında yüksək nəticələr əldə etmələrinə şərait yaradıb.

Bizim məktəbin kollektivi bütün imkanlardan səmərəli istifadə etməyə səy göstərir. Ötən il 14 məzunumuz ali məktəblərə qəbul olunub. 2018-2019-cu tədris ilində də yetirmələrimiz məktəbin tarixinə yeni uğurlar yazıblar. Qəbul imtahanlarının nəticələri xeyli sevindiricidir. Belə ki, 10 məzunumuz ölkənin müxtəlif ali məktəblərinə daxil olub.

Pedaqoji kollektivimizin hər bir üzvü yeni dərs ilində təlimdə və təhsildə yüksək nailiyyətlər əldə etmək üçün daha əzmlə çalışmağı qarşısına məqsəd qoyub. Bundan sonra da başlıca vəzifəmiz şagirdləri hərtərəfli şəxsiyyət kimi formalaşdırmaq və ümumi göstəricilərdə yüksək nailiyyətləri davam etdirməkdən ibarətdir. Bunun üçün hər bir müəllimin səmərəli fəaliyyət göstərməsindən ötrü bütün imkanlar səfərbər olunub. Əminik ki, əvvəlki illərdə olduğu kimi cari dərs ilində də uğur qazanacağıq.

**Yalçın ƏLİYEV,**
**R.Ağayev adına Şağlaser kənd tam orta məktəbinin direktoru.**

# İKİ MƏZUNUMUZ PREZİDENT TƏQAÜDÜNƏ LAYİQ GÖRÜLÜB





*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 9 sentyabr tarixli Sərəncamı ilə 2019-2020-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdü verilib. Həmin 102 tələbə arasında Lənkəran rayonunun ümumtəhsil məktəblərinin 2 məzunu da vardır.*

*Onlardan Boladi kənd tam orta məktəbinin məzunu Mirkazım Nemət oğlu Ağayev bu il keçirilən qəbul imtahanlarında 685 bal toplayaraq Bakı Ali Neft Məktəbinə qəbul olunub.*

*Separadi kənd tam orta məktəbinin məzunu Rəvan Qədir oğlu Axundzadə isə bu il keçirilən qəbul imtahanlarında 673 bal toplayaraq Azərbaycan Dövlət Tibb Universitetinə daxil olub.*

*Hər iki məzunumuzu təbrik edir, onlara yeni uğurlar diləyirik!*

**"Lənkəran"**

# MƏKTƏBDƏ MAARİFLƏNDİRMƏ TƏDBİRİ

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Şəhər Təhsil Şöbəsinin (ŞTŞ) birgə təşkilatçılığı ilə rayonun Şiləvar kənd məktəbində maarifləndirici tədbir keçirilib.

Tədbirdə DQİDK-nin Lənkəran bölgəsi üzrə şöbəsinin əməkdaşları Emin Həmidli, Tacəddin Sadıqov, Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH) başçısının Şiləvar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Qulaməli Hüseynov, Şiləvar və Digah kənd məktəblərinin pedaqoji kollektivi və valideynlər iştirak edib.



DQİDK-nin Lənkəran bölgəsi üzrə şöbəsinin əməkdaşı Emin Həmidli çıxış edərək ölkəmizdə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin nümunəvi Azərbaycan modeli haqqında iştirakçıları məlumatlandırıb. Dini dəyərlərin mənəvi dəyərlərimizin tərkib hissəsi olduğunu deyən E.Həmidli bu dəyərlərin qorunması, gənclərin bu dəyərlər və Azərbaycançılıq ideologiyası əsasında tərbiyə edilməsinin vacibliyinə diqqət çəkib.

Lənkəran ŞİH başçısının Şiləvar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Qulaməli Hüseynov, məktəblərin tərbiyə işləri üzrə direktor müavinləri və psixoloqlar çıxış edərək gənclərin mənəvi dəyərlərimiz və vətənpərvərlik ruhunda formalaşmasının zəruriliyi ilə bağlı fikirlərini bildiriblər.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Barat KƏRİMOV**

# ÇƏLTİKÇİLƏR BOL MƏHSUL GÖTÜRƏCƏKLƏR





Qeyri-neft-qaz sektorunun inkişafının prioritet elan edildiyi indiki dövrdə bu sahənin əsas qolu olan kənd təsərrüfatının şaxələndirilməsi xüsusi önəm daşıyır.

Bu isə yalnız unudulmuş kənd təsərrüfatı sahələrinin yenidən dirçəldilməsi sayəsində mümkündür. Məhz buna görə dövlət həmin sahələrin keçmiş şöhrətinin özünə qaytarılmasını vacib sayır ki, onlardan biri də çəltikçilikdir.

Lənkəran rayonunda fəaliyyət göstərən "Creen East" çəltikçilik fermer təsərrüfatında bu il bol məhsul yetişdirilib. Çəltikçilər 160 hektar sahədən bol məhsul götürəcəklər. Hər hektardan 4 ton məhsul əldə etmək nəzərdə tutulub. Artıq biçinə başlanıb. İşlər uğurla davam edir.

**Şəkillərdə:** kombaynçı Ramil Qasımov; aqronom Fərman Abdullayev və suçu Rasif Mirzəcanov zəmidə.

**Foto Fərman Bağırovundur.**

*("Azərbaycan" qəzeti, 10 sentyabr 2019-cu il)*

# AQRAR XİDMƏTLƏR AGENTLİYİNİN MÜTƏXƏSSİSLƏRİ LƏNKƏRANDA SİTRUS BAĞLARINA BAXIŞ KEÇİRİB



Aqrar Xidmətlər Agentliyinin, Lənkəran rayon Bitki Mühafizə Mərkəzinin və Regional Aqrokimya Laboratoriyasının mütəxəssisləri Lənkəranda bir neçə təsərrüfatda fermerlərlə görüşüb.

Görüşdə Aqrar Xidmətlər Agentliyi tərəfindən fermerlərə göstərilən xidmətlər, xəstəlik və zərərvericilərlə mübarizədə yeni pestisidlərdən istifadə, pestisidlərlə iş zamanı texniki təhlükəsizlik qaydaları barədə ətraflı məlumatlar verilib.

Həmçinin iştirakçılar tərəfindən sitrus bağlarına baxış keçirilib, zərərverici və xəstəliklərlə sirayətlənmə ilə bağlı müşahidələr aparılıb, zərərverici və xəstəliklərə qarşı vaxtında mübarizə tədbirlərinin aparılması ilə bağlı fermerlərə məsləhət və tövsiyələr verilib. Eyni zamanda, payızlıq taxıl əkini üçün sahələrdən, eləcə də sitrus bağlarından aqrokimyəvi analizlər aparmaq üçün torpaq nümunələri götürülərək Regional aqrokimya laboratoriyasına təqdim edilib.

Sonda fermerlərlə geniş müzakirələr aparılıb, onları maraqlandıran suallar ətraflı cavablandırılıb.

**Barat KƏRİMOV**

# FERMERLƏR ÜÇÜN MAARİFLƏNDİRMƏ TƏDBİRİ

"Gənclik və maarifçilik" İctimai Birliyi tərəfindən icra edilən "Fermerlərin ekoloji təmiz kənd təsərrüfatı istehsalı üzrə maarifləndirilməsi" layihəsi çərçivəsində AMEA-nın Lənkəran Regional Elmi Mərkəzində cənub bölgəsinin fermerləri üçün seminar keçirilib.

Tədbirdə Lerik, Astara, Masallı və Lənkəran rayonlarında fəaliyyət göstərən fermerlər və əlaqədar təşkilatların elmi işçiləri iştirak ediblər.

Tədbirdə layihənin rəhbəri, biologiya üzrə fəlsəfə doktoru Vaqif Əmikişiyev, Regional Mərkəzin direktoru, professor Fərman Quliyev, iqtisadiyyat üzrə fəlsəfə doktoru Əsəd Nuriyev, Mərkəzin şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Mais Cəfərov, aqrar elmlər üzrə fəlsəfə doktoru Xalıqverdi Babayev, ekspertlər və başqaları ekoloji təmiz kənd təsərrüfatı, üzvi əkinçiliklə bağlı dünya təcrübəsi, Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının tarixi və bu günü, Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatı hərəkatı, ekoloji təmiz kənd təsərrüfatı ilə bağlı ölkə qanunvericiliyi, genetik modifikasiya olunmuş bitkilər, problemlər və çıxış yolları, digər müvafiq məsələlərlə bağlı məruzələrlə çıxış edib, iştirakçıların suallarını cavablandırıblar.

Tədbirdə ekoloji təmiz kənd təsərrüfatı istehsalı sahəsində ölkəmizdə, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasında, xüsusən də AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Ekoloji Təmiz Kənd Təsərrüfatı üzrə Regional Təcrübə və Resurs Mərkəzində görülmüş işlər, aparılmış tədqiqatlar, fermerlər üçün yaradılmış imkanlar qeyd edilib.

Tədbir iştirakçılarına AMEA Genetik Ehtiyatlar İnstitutunda geni dəyişdirilmiş bitkilərlə bağlı toplanmış hərtərəfli informasiya və görülən işlər barədə məlumat verilib, AMEA-nın müxbir üzvü Zeynal Əkbərovun "Ekoloji təmiz kənd təsərrüfatı istehsalı və genetik modifikasiya olunmuş bitkilər" adlı kitabçada dərc edilmiş məqaləsini oxumaq tövsiyə edilib.

Seminara yekun vuran AMEA Lənkəran Regional Elmi Mərkəzinin direktoru, professor Fərman Quliyev regionda müvafiq problemlərlə bağlı durumdan danışıb, ekoloji təmiz çay istehsalının təşkilinin vacibliyini vurğulayıb.

Layihə çərçivəsində, həmçinin Lənkəran, Astara, Masallı və Lerik rayonlarında fermerlərlə görüşlər keçirilib, onlara geni dəyişdirilmiş bitkilər, ekoloji təmiz kənd təsərrüfatı istehsalı ilə bağlı məlumatlar verib, hüquqi-normativ sənədlər əsasında hazırlanmış kitabça və informasiya xarakterli bukletlər paylanılıb.

**Barat KƏRİMOV**



# AMEA-NIN ƏMƏKDAŞLARI LƏNKƏRAN REGİONAL ELM MƏRKƏZİNDƏ TƏCRÜBƏ MÜBADİLƏSİ APARIBLAR

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun (MBBİ) bir qrup əməkdaşı AMEA-nın Lənkəran Regional Elm Mərkəzində (LREM) olublar.

LREM-in direktoru, aqrar elmlər doktoru, professor Fərman Quliyev AMEA-nın əməkdaşlarına rəhbərlik etdiyi təşkilatda aparılan elmi-tədqiqat işlərindən, Azərbaycanda çayçılığın inkişafı ilə bağlı Dövlət Proqramının icrası istiqamətində görülən işlər və əldə edilən nəticələr barədə məlumat verib.

MBBİ-nin laboratoriya müdirləri, biologiya elmləri doktorları Yaşar Feyziyev, Səftər Süleymanov, biologiya üzrə fəlsəfə doktoru Ələmdar Məmmədov institutda aparılan elmi-tədqiqat işlərindən, elmi kadrların hazırlanması istiqamətində son yeniliklərdən, yeni laboratoriyalardan danışıblar.

Sonra qonaqlar LREM-nin Azərbaycan Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Lənkəran Çay Filialının təcrübə bazasında aparılan tədqiqatlarla tanış olub, çay və sitrus bitkilərinin öyrənilməsi, rayonlaşdırılması və yeni sortlarının yaradılması istiqamətində



görülən işlərlə maraqlanıblar.

Professor Fərman Quliyev bildirib ki, aparılan elmi-tədqiqat işlərinin nəticəsi olaraq 2019-cu ildə 4 yeni çay sortu sınaqdan müvəffəqiyyətlə keçərək dövlət reyestrinə salınıb. Dövlət sort sınağına qəbul edilən daha 2 sitrus-limon və narıngi formalarının sınağı davam etdirilir.

Diqqətə çatdırılıb ki, professor F.Quliyevin təşəbbüsü və rəhbərliyi altında bölgə üçün İran İslam Respublikasından intruduksiya edilmiş tropik-subtropik quayava (Psidium quayava) bitkisinin becərilməsi imkanları öyrənilib.

Yerli şəraitə dözümlülüyü və məhsuldarlığı ilə seçilən yeni çay və sitrus sortlarının bazasının yaradılması istiqamətində işlər davam etdirilir.

Görülən işlərdən məmnunluğunu bildirən qonaqlar bundan sonra da qarşılıqlı əməkdaşlıq, elmi-texniki sahələrdə mütəxəssis mübadiləsi, LREM üçün mütəxəssislərin hazırlanması, gənclərin elmi tədqiqatlara cəlb edilməsi, digər maraq doğuran aktual məsələlər üzrə birgə elmi seminarların təşkili barədə razılığa gəliblər.

Qeyd edək ki, bu ilin mart ayında AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, AMEA-nın Regional Elmi Mərkəzi və Lənkəran Dövlət Universiteti arasında elmi tədqiqat və kadr hazırlığı üzrə üçtərəfli əməkdaşlıq barədə razılaşma Memorandumu imzalanıb.

**S.MİRSƏFƏROĞLU**

# ALMANİYA VƏ RUSİYADAN OLAN TURİSTLƏR ÜÇÜN TANITIM TURU TƏŞKİL OLUNUB



Lənkəran Turizm İnformasiya Mərkəzi Cənub bölgəsinin turizm potensialının təbliğ olunması, bölgəyə xarici turistlərin marağının artırılması ilə bağlı Almaniya və Rusiyadan olan turistlər üçün Lənkəran, Masallı və Yardımlı rayonlarına növbəti infoturlar təşkil edib.

Mərkəzin direktoru İlqar Əzimovun qəzetimizə verdiyi məlumata görə, tur zamanı xarici qonaqlar Hirkan Milli Parkının zəngin flora və faunası ilə tanış olublar, eyni zamanda Lənkəranın görməli yerlərinə səyahət ediblər. "Yaşıl Çay" fermer təsərrüfatının plantasiyaları ilə tanışlıq xarici qonaqların zəngin təəssüratına səbəb olub. Burada onlara Lənkəranın çayçılıq ənənələri haqqında geniş məlumat verilib.

Növbəti günlərdə turistlər qonşu Masallı və Yardımlı rayonlarının gəzməli-görməli məkanlarına səfər ediblər.

**"Lənkəran"**

# İSPANİYALI TURİSTLƏR XAN SARAYINDA



Lənkəranda turistlərin ən çox üz tutduğu məkanlardan biri də hazırda Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərən, tarixi mədəniyyət abidəsi olan Xan sarayıdır. Lənkəranın ilk çoxmərtəbəli tarixi binasını bu yay xeyli əcnəbi turist ziyarət edib. Rayonun gəzməli-görməli yerlərinə baş çəkən 32 nəfərlik ispaniyalı turist heyəti Tarix-Diyarşünaslıq Muzeyində sərgilənən eksponatlarla böyük maraqla tanış olublar.

Lənkəran xanlarının sonuncusu olan Mirəhməd Xan bu sarayı həyat yoldaşı Tuğra xanım Tiflisdə keçirilən Zaqafqaziya gözəllik müsabiqəsində uğur qazandığına görə 1913-cü ildə onun şərəfinə tikdirib. Binanın layihəsi fransalı memar tərəfindən hazırlanıb. Abidənin tikintisində milli memarlıq elementlərindən bacarıqla istifadə olunub. Onun fasadı əlvan naxışlarla zəngindir. Bina tikilərkən bir çox inşaat materialları Fransadan və Bakıdan Lənkərana gəmi vasitəsilə gətirilib. Xan sarayı həm Qərb, həm də Şərq memarlıq elementlərini özündə birləşdirir. Bu da binaya xüsusi orijinallıq və gözəllik verməklə, yerli turistlərlə yanaşı, əcnəbi turistlərin də marağına səbəb olur.

İspaniyalı turist Pakio Simo ilk dəfədir Azərbaycana səfər edir. Bakıda Şirvanşahlar sarayını və Qız qalasını ziyarət edən əcnəbi turist deyib: "Biz, həmçinin Qobustan muzeyində də olmuşuq. Gözəl muzeydir. Cənub bölgəsi, xüsusilə Lənkəran muzeyindəki qədim əşyalar da maraqlıdır. Qədim pullar, milli geyimlər, məişət əşyaları hamısı keçmiş dövr haqqında fikir oyadır. Bütün bunlar bizdə xoş təəssürat yaradır".

Marivel Qanderes: "İspaniyadan bura qrup şəklində gəlmişik. Səkkiz gündür Azərbaycandayıq. Bakı çox xoşuma gəldi. Azərbaycan bizim ölkəmizdən fərqlidir. Təbiəti, tarixi bizim üçün çox maraqlıdır. Öyrəndik ki, Lənkəran ölkənizin cənubunda, İranla sərhəddə yerləşir. Burada eksponatların hər birinə baxdıq. Muzey haqqında bizə maraqlı məlumatlar verildi. Bu haqda biz də öz ölkəmizdə dostlarımıza danışacağıq".

İspaniyalı turistləri heyran edən muzeyin əsas fondunda 7 minə yaxın eksponat var ki, onların da çoxu ekspozisiyada nümayiş olunur. Belə bir tarixi mədəniyyət abidəsi olan muzeyin qapıları ziyarətçilərin üzünə daim açıqdır və Xan sarayı gələnlərə həmişə keçmişi göstərməyə hazırdır.

Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinin fond müdiri İlham Quliyev deyib: "İl ərzində yerli turistlərlə yanaşı, xarici qonaqlar da muzeyimizi ziyarət edirlər. Qədim dövrə, tunc dövrünə aid əşyalar əcnəbi turistlərə çox maraqlı gəlir. Cənub bölgəsinin etnoqrafiyası və milli folklorumuz, mətbəximizə aid nümunələr, bəzək və məişətdə istifadə olunmuş əşyalar onların diqqətini cəlb edir".

Məlumat üçün bildirək ki, bu ilin 8 ayında Lənkəran Tarix-Diyarşünaslıq Muzeyini 19 min 315 turist ziyarət edib. Onların da 908 nəfəri xarici turistlərdir. Ümumilikdə isə yay mövsümündə Lənkərana 15 minə yaxın turist gəlib. Bunların da 15 faizi əcnəbi turistlər olub.

**"Lənkəran"**

# İCBARİ SIĞORTA DƏYMİŞ ZƏRƏRİ ARADAN QALDIRIR

Bəşəriyyət yarandığı gündən insanlar bir çox təbii fəlakətlər, yanğın, zəlzələ və digər təbii və texnogen hadisələrlə rastlaşmışlar. Heç şübhəsiz, kainatda baş verən bu cür gözlənilməz hadisələr bir sıra ağır fəsadlar törətmiş, dağıntılara və tələfatlara səbəb olmuşdur. Bütün bunlar isə mülkiyyət hüququndan asılı olmayaraq insanlara külli miqdarda ziyan vurmuşdur. Hətta elm və texnikanın ildən-ilə inkişaf etdiyi müasir dövrdə belə təbii fəlakətlərin, gözlənilməz hadisələrin dövlətin və insanların əmlakına vurduğu ziyandan, ağır nəticələrdən qaçmaq mümkün deyil. Amma dəymiş ziyanı aradan qaldırmaq mümkündür və bu funksiyanı iqtisadi qurum kimi sığorta təşkilatları həyata keçirir.

Hazırda ölkəmizdə fəaliyyət göstərən sığorta şirkətləri də təbii fəlakətlərdən, yanğından, zəlzələdən və digər gözlənilməz hadisələrdən dəyən zərərin ödənilməsinə sığorta təminatı yaratmaq məqsədilə əhaliyə xidmət göstərir və bu istiqamətdə dövlət tərəfindən ardıcıl tədbirlər həyata keçirilir. Ölkəmizin dinamik inkişafı, həyata keçirilən sosial-iqtisadi islahatlar digər sahələrdə olduğu kimi, sığorta sahəsində də qanunvericilik bazasının möhkəmləndirilməsini təmin etmiş, bu sahədə bir çox qanunlar, o cümlədən "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Bu Qanun Azərbaycan Respublikasında daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, daşınmaz əmlak sahiblərinin mülki məsuliyyətinin icbari sığortası və sərnişinlərin icbari sığortası sahəsində sığortaçılar, sığortalılar, sığorta olunanlar və faydalanan şəxslər arasında hüquqi və iqtisadi münasibətləri tənzimləməklə, onların hüquq və mənafelərinin qorunması məqsədi ilə Azərbaycan Respublikasında qeyd olunan icbari sığorta növlərinin həyata keçirilməsinin ümumi əsaslarını, həmçinin bu növlərin aparılması qaydalarını və şərtlərini müəyyən edir.

Sığorta şəxslərin əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, həmçinin qanunvericiliklə qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan əmlak mənafelərinin müdafiəsi sahəsində riskin ötürülməsinə və ya bölüşdürülməsinə əsaslanan münasibətlər sistemidir.

Məlum həqiqətdir ki, bütün dünyada olduğu kimi, ölkəmizdə də yanğın hadisəsi baş verir. Təbii ki, bu halda əmlak sahibi həm maddi, həm də mənəvi cəhətdən ziyan çəkir. "İcbari sığortalar haqqında" Qanunun əsas məqsədi yanğın və digər hadisələr nəticəsində əhalinin əmlakına və sağlamlığına vurulan zərərin əvəzini vaxtında ödəməklə onların əmlak mənafelərinin qorunmasından və sosial müdafiəsinə əlavə təminat verilməsindən ibarətdir.

Əlbəttə, sığorta diqqətsizliyimiz nəticəsində baş verəcək hadisələrin qarşısını ala bilməz. Nə də ki, mənəvi cəhətdən bizə dəymiş olan yaralarımızı sağalda bilməz. Lakin bu bədbəxt hadisə nəticəsində dəymiş olan zərəri heç olmasa maddi cəhətdən təmin etmiş olur. Daha doğrusu, sığorta hər hansı gözlənilməz hadisə və ya qəzadan zərərçəkən insanların vəziyyətini bərpa etmək, zərəri aradan qaldırmaq üçün vasitədir.

Yanğın, eləcə də ildırım düşməsi, partlayış və ya bunlarla əlaqədar əmələ gələn tüstü, buxar və ya istilik nəticəsində sığorta olunanın əmlakına, habelə üçüncü şəxslərin əmlakına və sağlamlığına zərərin vurulması sığorta hadisəsi sayılır. "İcbari sığortalar haqqında" qanun sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin əmlakının və üçüncü şəxslər qarşısında mülki məsuliyyətinin həm də yanğından icbari qaydada sığortalanmasını təmin edir. İllik sığorta haqqı obyektin qiymətindən asılı olaraq müəyyən olunur. Daşınmaz əmlakın icbari sığortası daşınmaz əmlakın yanğın və ya digər hadisələr nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı dəyən zərərin əvəzinin ödənilməsi məqsədi ilə tətbiq edilir. Hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış evləri və binalarının, mənzillərin, habelə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən dövlət əmlakının sığortası icbaridir. Sökülməsi barədə dövlət və yerli özünüidarəetmə orqanlarının qərar verdiyi, tikintisi başa çatmayan, qəzalı vəziyyətdə olan, qanunvericiliklə icazə verilməyən yerlərdə inşa edilmiş daşınmaz əmlaklar icbari sığortaya cəlb olunmur.

Yaşayış binalarının, yaşayış evlərinin və mənzillərin icbari sığortası onların konstruktiv elementlərinə, otaqlarına, o cümlədən şüşələr də daxil olmaqla qapı və pəncərə konstruksiyalarına, su, kanalizasiya və qaz təchizatına, habelə istilik sisteminə aid borulara, rabitə, elektrik və digər naqillərinə, bəzək elementlərinə, o cümlədən bütün növ xarici, yaxud daxili mala və suvaq işlərinə, divar, tavan və döşəməyə dəyən zərərlərə təminat verir.

Daşınmaz əmlakın istismar edilməsi, o cümlədən onun ərazisində inşaat, təmir, yenidənqurma və ya digər işlərin aparılması nəticəsində aşağıdakı hallarda zərərçəkən üçüncü şəxslərin sağlamlığına və əmlakına dəyən zərərin əvəzinin ödənilməsi üzrə mülki məsuliyyətin yaranması faktı sığorta hadisəsi hesab olunur:

– elektrik və qaz cihazlarından istifadə nəticəsində yaranan yanğın, yaxud belə yanğının qarşısının alınması üçün görülən tədbirlərin nəticəsi;

– qaz partlayışı;

– elektrik naqillərində baş verən qısaqapanma;

– su, istilik, kanalizasiya xətlərində baş verən qəza nəticəsində subasma;

– hər hansı predmetin və ya onun hissələrinin düşməsi, atılması, dəyməsi, dağılması, axıdılması və digər bu kimi formalarda təsiri;

– yerüstü nəqliyyat vasitəsinin dəyməsi;

– təbii fəlakətlər – zəlzələ, vulkan, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi;

– üçüncü şəxslərin hərəkətləri.

Əmlakın aşağıdakı hallar nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı digər formada itkisi sığorta hadisəsi hesab olunmur:

– sığortalının, faydalanan şəxsin və ya onların rəhbər işçilərinin hadisənin baş verməsinə yönəldilmiş qəsdən etdiyi hərəkətlər;

– sığortalanmış əmlaka təmir, emal və ya digər istehsalat məqsədləri üçün tətbiq olunan istehsal alovunun, yaxud istiliyin təsiri nəticəsində, eyni zamanda, yanğın baş verməmişdirsə, belə əmlaka zərərin dəyməsi;

-hadisə zamanı və ya hadisədən sonra əmlakın hər hansı hissəsinin oğurlanması;

-qrunt sularının səviyyəsinin dəyişməsi;

-suyun borulardan və ya rezervuardan şaxta vurma, aşınma, yeyilmə, tədricən xarab olma, boruların və rezervuarların təmiri, köçürülməsi və ya tutumunun artırılması nəticəsində axması.

Mülkiyyətində "İcbari sığortalar haqqında" Qanunun 35.2.-ci maddəsində nəzərdə tutulmuş hər hansı daşınmaz əmlak olan və ya ona faktiki sahiblik həyata keçirən şəxslər həmin əmlakı bu Qanunun 8.3-cü maddəsini nəzərə almaqla, icbari qaydada sığorta etdirməlidir.

Sahibi olduğu daşınmaz əmlakın icbari sığortası müqaviləsini bağlayan və müvafiq icbari sığorta şəhadətnaməsinin adına verildiyi şəxs sığortalı hesab edilir.

Sığorta müqaviləsi sığortalının yazılı ərizəsi və əmlakın dəyəri göstərilməklə sığorta olunmaq üçün təqdim edilən əmlakın siyahısı əsasında sığortaçının nümayəndəsi tərəfindən sığorta olunanın iştirakı ilə sığorta obyektinə baxılmaqla bağlanılır.

Sığortalının əmlakı tam dəyəri ilə sığortaya cəlb edilir. Sığorta müqaviləsi bir il müddətinə bağlanılır.

İcbari sığorta müqaviləsinin bağlanmamasına görə "İnzibati Xətalar Məcəlləsi"ndə mülki məsuliyyət nəzərdə tutulub. "İnzibati Xətalar Məcəlləsi"nin 469.1 maddəsində qeyd olunub ki, icbari sığorta qanunvericiliyinə əsasən, müvafiq riskləri icbari qaydada sığorta etdirmək vəzifəsi müəyyən edilmiş fiziki və ya hüquqi şəxslər tərəfindən sığortaçı ilə icbari sığorta müqaviləsinin bağlanmamasına görə – fiziki şəxslər otuz manat miqdarında, vəzifəli şəxslər səksən manat miqdarında, hüquqi şəxslər isə iki yüz manat miqdarında cərimə edilir.

"İcbari sığortalar haqqında" Qanunun 75-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini yaşayış binaları, yaşayış evləri və mənzillərin icbari sığortasına münasibətdə müvafiq yerli icra hakimiyyəti orqanları, digər daşınmaz əmlakın icbari sığortası və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasına münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir.

Yeri gəlmişkən, deyək ki, inkişaf etmiş ölkələrdə sığortaya maraq çoxdur. Çünki həmin ölkələrdə sığorta bazarı uzun illər ərzində formalaşaraq mükəmməl sistemə çevrilib və hamı bu sistemin üstünlüklərini bilir, yeri gəldikdə ondan bəhrələnir. Lakin etiraf edək ki, respublikamızda sığortanın mahiyyəti, əhəmiyyəti hələ də lazımi səviyyədə bəzi insanlar tərəfindən dəyərləndirilmir. Gərək hər kəs bilsin ki, əgər sığorta hadisəsi baş verərsə, əmlakına dəyən ziyanı təkbaşına aradan qaldırmalı, xərclərin hamısını öz üzərinə götürməli olmayacaq, sığorta müqaviləsi bağladığı şirkət ona maddi dəstək verəcək və maliyyə riski ilə üzləşsə, heç də hər şeyi itirməyəcək.

**Cənub Regional Dövlət Yanğın Nəzarəti İdarəsi**

# "YURDUM, YUVAM, MƏSKƏNİMSƏN, AZƏRBAYCANIM!" IV YARADICILIQ FESTİVALI BAŞA ÇATIB




Lənkəran şəhərindəki Milli Qəhrəman Əsgər Əliyevin adını daşıyan parkda "Yurdum, yuvam, məskənimsən, Azərbaycanım!" devizi ilə keçirilən IV yaradıcılıq festivalına yekun vurulub.

Mərasimdə çıxış edən Lənkəran Şəhər Mədəniyyət Mərkəzinin direktoru, festivalın təşkilat komitəsinin sədri Hafiz Mirzə rayonda ənənəvi keçirilən festivalın yekunları barədə məlumat verib.

Qeyd olunub ki, IV yaradıcılıq festivalı M.Kələntərli adına Lənkəran şəhər sənətkarlıq klubu ilə yanaşı, Boladi-1 folklor, Boladi-2 diyarşünaslıq, Vel kənd sənətkarlıq, Veravul kənd ziyalılar, Vilvan kənd folklor, Tütəpeştə kənd sənətkarlıq, Haftoni qəsəbə sənətkarlıq, Havzava kənd sənətkarlıq, Sütəmurdov kənd diyarşünaslıq, Tatova kənd sənətkarlıq, Rvo kənd yaradıcılıq, Ləj kənd sənətkarlıq klublarında, Osakücə kənd yaradıcılıq, Separadi kənd folklor, Hirkan qəsəbə yaradıcılıq, H.Rzayev adına şəhər yaradıcılıq, Göyşaban kənd yaradıcılıq, Bürcəli kənd yaradıcılıq evlərində və şəhər Mədəniyyət Mərkəzində keçirilib.

Festivalda 67 müğənni, 18 bədii qiraətçi dinlənilib, 8 rəqs kollektivi çıxış edib. Tamaşaçıların sayı 4 mindən çox olub.

Diqqətə çatdırılıb ki, festival çərçivəsində 7 Filial Birliyi və Mədəniyyət Mərkəzinin iştirakı ilə iyun-avqust aylarında 21 konsert təşkil olunub.

Festivalın bütün mərhələlərində sənətkarların əl işlərindən ibarət sərgi təqdim olunub.

Tədbirdə çıxış edən Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Vüsal Nəsirli festivalın əhəmiyyətini yüksək dəyərləndirərək Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Bölgələrdən bölgələrə" II yaradıcılıq festivalında Lənkəran Regional Mədəniyyət İdarəsini uğurla təmsil etmiş bir qrup klub fəalına idarənin fəxri fərmanlarını təqdim edib.

Festivalın bağlanış mərasimi "Ay Lolo" və "Çölləmə" rəqs qruplarının gözəl ifası, bədii qiraət ustalarının məharəti, tamaşaçıların çoxluğu və fəallığı ilə fərqlənib.

İfaçılara Mədəniyyət Mərkəzi tərəfindən IV yaradıcılıq festivalının laureat diplomları və hədiyyələr təqdim olunub.

**A.ŞAĞLASERLİ**

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ

Azərbaycan Respublikasının Daxili İşlər Naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari ilin sentyabr ayının 28-də saat 10.00-da Lənkəran şəhərində – bölgə üzrə Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı və Lerik rayonlarından müraciət etmiş şəxslərin daxili işlər orqanları əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərə bağlı qəbulu keçiriləcəkdir.

Vətəndaşlar bu məsələlərlə bağlı Lənkəran Şəhər-Rayon Polis Şöbəsində qəbula yazıla bilərlər.

**Lənkəran Şəhər-Rayon Polis Şöbəsi**

## ƏMƏK VETERANLARININ NƏZƏRİNƏ

Qırx ildən çox fasiləsiz iş stajına malik və "Əmək veteranı" adına layiq görülmüş vətəndaşlardan xahiş olunur ki, Azərbaycan Veteranlar Təşkilatında (AVT) uçota alınmaqdan ötrü şəxsiyyət və "Əmək veteranı" vəsiqələri ilə "Lənkəran" qəzetinin redaksiyasında Əlimərdan Əliyevə müraciət etsinlər.

**Azərbaycan Veteranlar Təşkilatının Lənkəran şöbəsi**

## İTMİŞDİR

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 16 may tarixli 09 saylı qərarı ilə Şağlaser kənd sakini **İsmayılov Rafiq İskəndər oğlunun** adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-597, kod:80224018) itdiyi üçün etibarsız sayılır.

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1997-ci il 13 avqust tarixli 08 saylı qərarı ilə Ləj kənd sakini **Məmmədov İlqar Əlixan oğlunun** adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə (JN-393 A, kod:80205028) itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Lənkəran Şəhər Ərazi İdarəsi tərəfindən 04.07.2014-cü il tarixdə Vilvan kənd sakini **Məmmədov Ağagül Ağababa oğlunun** adına verilmiş hüquqların dövlət qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən 0425832 nömrəli Çıxarış itdiyi üçün etibarsız sayılır.

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 27 mart tarixli 05 saylı qərarı ilə Kosalar kənd sakini **Kazımov Bağır Məmməd oğlunun** adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-207, kod:80206038) itdiyi üçün etibarsız sayılır.

Lənkəran Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 27 mart tarixli 05 saylı qərarı ilə Bala Şürük kənd sakini **Şıxəliyev Feyruz Məli oğlunun** adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-157, kod:80206028) itdiyi üçün etibarsız sayılır.

03.03.2008-ci il tarixdə Lənkəran rayonunun Əşlə kəndində yerləşən kənd məscidinin dini icmasına verilmiş 13082ə1-445 nömrəli qeydiyyat şəhadətnaməsi, reyestr sənədi və nizamnamə itdiyi üçün etibarsız sayılır.

*İdman*

## "LİMAN" KOMANDASI ÖLKƏ KUBOKUNUN QALİBİ OLUB



Sentyabrın 8-də AFFA və Sahə Futbol Federasiyasının dəstəyi, Həvəskarlar Futbol Federasiyasının təşkilatçılığı ilə həvəskar futbolçulardan ibarət komandalar arasında ölkə kubokunun final oyunu keçirilib.

"ASK Arena"da keçirilmiş həlledici qarşılaşmada Lənkəranın "Liman" və Bakının "Mübariz" komandaları qarşılaşıb. Rəqibinə 3:1 hesabı ilə qalib gələn "Liman" ölkə kubokunun qalibi olub.

Final oyunu başa çatdıqdan sonra mükafatlandırma mərasimi keçirilib. Komandalara medal və diplomlar, qalibə isə ölkə kuboku təqdim olunub.

**"Lənkəran"**

*Hərəkətin təhlükəsizliyi aylığı*

## "DİQQƏT, UŞAQLAR!"



Respublikamızın ümumtəhsil məktəblərində yeni dərs ilinin başlanması ilə əlaqədar küçə və yollarda nəqliyyat vasitələrinin hərəkət intensivliyinin yüksək olduğu bir şəraitdə məktəblilərin təhlükəsizliyinin təmin edilməsi, xüsusilə uşaq və yeniyetmələrin həyat və sağlamlıqlarının qorunması polisin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Ölkədə nəqliyyat vasitələrinin sayının ilbəil artması fonunda yol qəzalarının qarşısının alınması sahəsində həyata keçirilən profilaktik tədbirlərlə müsbət nəticələrin əldə edilməsinə baxmayaraq, cari ilin 7 ayı ərzində respublika ərazisində uşaq və yeniyetmələrin iştirakı ilə baş vermiş yol-nəqliyyat hadisələrində 26 azyaşlının həlak olması, 96 nəfərin isə xəsarət alması ciddi narahatçılıq doğurur.

Qeyd olunan hallar uşaq və yeniyetmələrin iştirakı ilə baş vermiş yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində profilaktik tədbirlərin daha da gücləndirilməsi, habelə ümumtəhsil məktəblərində şagirdlərə təhlükəsiz davranış vərdişlərinin aşılanması, onların marşrutu üzrə hərəkətin düzgün təşkili, o cümlədən təhsil müəssisələrinin yerləşdiyi ərazilərdə yol nişanlarının quraşdırılması (köhnələrin yenisi ilə əvəzlənməsi), piyada zolaqlarının yenilənməsi və digər tədbirlərin həyata keçirilməsi zəruri olduğundan ciddi nəzarətdə saxlanılaraq rayonun küçə və yollarında mütəmadi müayinələr aparılır və sözügedən məsələlər operativ icra olunur.

Bu səbəbdən rayon ərazisində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi, uşaq və yeniyetmələrin, həmçinin piyadaların iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması, eləcə də onların ağırlıq dərəcəsinin aşağı salınması istiqamətində profilaktik tədbirlərin gücləndirilməsi, habelə ümumtəhsil məktəblərində şagirdlərə təhlükəsiz davranış vərdişlərinin aşılanması və tədris prosesinin effektliliyinin yüksəldilməsində dövlət yol polisinin köməyinin artırılması ən vacib məsələlərdəndir. Bu məqsədlə respublika ərazisində və eləcə də, Lənkəran şəhər-rayon ərazisində yeni dərs ilinin başlanması ilə əlaqədar 2019-cu ilin sentyabr ayının 15-dən oktyabr ayının 15-dək "Diqqət, uşaqlar!" adı altında hərəkətin təhlükəsizliyi aylığı keçirilir.

**Emil VƏLİYEV,**
**Lənkəran ŞRPŞ DYPB-nin təbliğat və təşviqat üzrə inspektoru, polis kapitanı**

## ALLAH RƏHMƏT ELƏSİN

Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri Aslan İbrahimov və kollektivi Bəliton kənd tam orta məktəbin direktoru **Şadman Ağayevə** atası
**Əlәmdar kişinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor
Əlimərdan ƏLİYEV

TƏSİSÇİLƏR:
Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının aparatı və "Lənkəran" qəzetinin yaradıcı kollektivi

HESAB NÖMRƏMİZ:
AZ30AIIB33010019443860238138
VÖEN 2600244411
Kapital Bankın
Lənkəran filialı
lisenziya № V 343
İndeks: 66920

ÜNVANIMIZ:
Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-cü mərtəbə)
Telefonlar: 255-35-05, 255-35-49
E-mail: lenkeranqezeti@mail.ru
Buraxılışa məsul
İltifat Əhmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "Azərmedia" MMC-nin mətbəəsində çap olunmuşdur.
Tiraj: 1700